# ÜMRƏNIN NÖVLƏRI

<"xml encoding="UTF-8?>

ÜMRƏNIN NÖVLƏRI

Məsələ 1. Ümrə də həcc kimi iki hissəyə bölünür: vacib və müstəhəb.

İstitaətin şərtlərinə malik olan şəxsə ömründə bir dəfə ümrə yerinə yetirməsi vacibdir. Ümrə də həcc kimi dərhal yerinə yetirilməlidir və onun vacib olmasında həccin istitaəti mötəbər deyildir. Əksinə, əgər ümrə üçün müstəti olsa – həcc üçün müstəti olmasına baxmayaraq – vacib olur. Həmçinin, bunun əksi də bu cürdür ki, əgər bir şəxs həcc üçün istitaətə malik olsa və ümrə üçün müstəti olmasa, həcci yerinə yetirməlidir. Lakin Məkkədən uzaq olan və vəzifəsi təməttö həcci yerinə yetirmək olan şəxslərin həcc istitaəti ümrə istitaətindən, ümrə istitaəti isə həcc istitaətindən ayrı deyildir. Çünki təməttö həcci bunların hər ikisinin əməllərindən təşkil olunmuşdur. Məkkədə və ona yaxın məntəqələrdə yaşayan şəxslər isə müstəsnadırlar. Onların vəzifəsi “ifrad” və “qiran” həccidir ki, bu iki əməldən birinə istitaət tapmaları ilə müşayiət olunur.

Məkkəyə daxil olmaq istəyən şəxsin ehramlı olması vacibdir və əgər həcc aylarında deyil, başqa aylarda Məkkəyə daxil olmaq istəyirsə, müfrədə ümrəsi üçün ehram bağlaması vacibdir.

Məsələ 2. Ümrəni təkrarən yerinə yetirmək, həccin təkrarən yerinə yetirilməsi kimi müstəhəbdir və iki ümrə arasında müəyyən bir fasilə olması şərt deyildir. Özü üçün ümrə yerinə yetirirsə, ehtiyat budur ki, ikisinin arasında bir az fasilə versin. Amma əgər iki nəfər üçün, ya bir ümrənin özünün, o birisinin isə başqasının tərəfindən yerinə yetirirsə, qeyd olunmuş fasilə mötəbər deyildir. Beləliklə, əgər ikinci ümrə niyabət üçün olsa, naib onun üçün zəhmət haqqı ala bilər və bu iş vacib olan müfrədə ümrəsi üçün kifayət edər.